# Yeniyetmələrin təlim fəaliyyətinin psixoloji xüsusiyyətləri

**Zemfira Səlimova**
*ADPU-nun Yaş və pedaqoji psixologiya kafedrasının baş müəllimi*
**E-mail:** zema.salimova@mail.ru

**Rəyçilər:** psixol.ü.f.d., dos.S.N. Heydərova,
ped.ü.f.d., dos.Z.İ. Əliyeva

**Açar sözlər:** yeniyetmə, təlim çətinlikləri, psixi fəallıq, münaqişələr, dərs fəaliyyəti, mənimsəmə prosesi, özünüqiymətləndirmə

**Ключевые слова:** подросток, трудности обучения, психическая активность, конфликты, учебный деятельности, процесс присвоении, самооценивание

**Key words:** teenager, learning difficulties, mental activity, conflict, learning activity, process of appropriation, self-evaluation

Yeniyetməlik dövrünü "keçid", "təhlükəli", "dönüş" və s. dövrü də adlandırırlar. Həmin dövrdə oğlan və qızların fiziki və psixi inkişafında müxtəlif keyfiyyət dəyişmələri baş verir. Bununla əlaqədar olaraq uşaqlıqdan yaşlılığa keçid həmin dövrün əsasını təşkil edir. Bu yaş dövründə uşağın anatomik – fizioloji və psixi inkişafında, iradi – emosional və əqli həyatında nəzərə çarpan ciddi dəyişikliklər baş verir və yetkinliyin üç səviyyəsi özünü göstərir. Bunlar cinsi, psixoloji və sosial yetkinlik prosesləridir.

Yeniyetmələrin təlim fəaliyyəti bir sıra xüsusiyyətlərinə görə fərqlənir. Hər şeydən əvvəl, onlarla bir müəllim deyil, bir neçə müəllim məşğul olmağa başlayır. Çox vaxt həmin müəllimlər öz davranış, ünsiyyət üslublarına, eləcə də dərsi aparma tərzlərinə görə bir-birlərindən fərqlənirlər. Ayrı-ayrı müəllimlər yeniyetmənin qarşısına müxtəlif tələblər qoyurlar. Bu isə yeniyetmələri hər bir yeni müəllimə fərdi olaraq uyğunlaşmağa məcbur edir. Bununla yanaşı olaraq yeniyetməlik yaşı dövründə ayrı-ayrı müəllimlərə fərqləndirici münasibət özünü göstərməyə başlayır (1, s. 39).

Yeniyetmələr bəzi müəllimləri sevir, bəzilərini heç sevmir, bəzilərinə qarşı isə laqeyd olurlar. Yeniyetmələr ciddi, lakin ədalətli, uşaqlara xoş münasibət bəsləyən, materialı maraqlı və aydın izah edən, şagirdləri düzgün qiymətləndirən, hamıya eyni xeyirxah münasibət bəsləyən, demokratik ünsiyyət üslubuna malik olan müəllimləri daha yüksək qiymətləndirirlər.

Yeniyetmələrin təlim fəaliyyətinin yeni xüsusiyyətlərini səciyyələndirən ən mühüm cəhət təlimdə şagirdin müstəqilliyinin inkişafı ilə əlaqədardır. Yeniyetmə yalnız dərsdə rast gədiyi yenilikləri mənimsəməklə kifayətlənməyib, həm də biliklərin yeni sahələrini müstəqil surətdə mənimsəməyə çalışır. Yeniyetmələri ən çox astronomiya, texnika, radiotexnika və kibernetikaya dair məsələlər maraqlandırır və onlar sərbəst olaraq bu sahədə biliklərini genişləndirir və eyni zamanda müxtəlif dərnəklərdə iştirak etməyə can atırlar, kompüter, internet vasitəsilə müəyyən məlumatlar əldə edirlər.

Bəzən valideynlər arasında belə bir fikir formalaşır ki, yeniyetmənin bədii ədəbiyyatla məşğul olması sadəcə olaraq, istirahət və ya əyləncə xarakteri daşıyır. Bu tamamilə yanılş fikirdir. Valideyn və müəllimlər yeniyetmənin mütaliəsinə xüsusi fikir verməli və oxunulmuş kitablar haqqında onunla fikir mübadiləsi aparmalıdırlar. Bu söhbətlər zamanı yaşlı yeniyetməni hansı problemləri narahat etdiyini öyrənə bilir. Əgər uşaq hər hansı bir məsələnin

mahiyyətini anlamaqda çətinlik çəkir, düzgün başa düşmürsə ona bu işdə əməli köməklik göstərməyə çalışır. Bu da yeniyetmənin öz ləyaqətini, xüsusiyyətlərini üzə çıxarmağa imkan yaradır (2, s. 103).

Gerçəkliyə şüurlu münasibətin ümumi inkişafı ilə əlaqədar olaraq yeniyetmənin təlimə münasibəti tədricən dəyişilir. Yeniyetmə biliklərin əsasını mənimsədikcə həyat təcrübəsi artır. Bəzən də onların maraqları hətta tədris proqramının çərçivəsindən belə kənara çıxa bilir.

Yeniyetmənin təlim fəaliyyətinin və ona münasibətinin dəyişməsi ilə əlaqədar olaraq idrak fəaliyyətinin inkişafı üçün şərait yaranır. Təlim fəaliyyəti yeniyetmələrin qavrayışına əsaslı təsir göstərir və inkişafını sürətləndirir. Bu dövrdə şagirdlərin qavrayışı geniş əhatəli olmaqla ardıcıl və seçici xarakter daşıyır. Onların qavrayışı ən çox maraqlandıqları cisim və hadisələrlə bağlı olur: nə ilə daha çox maraqlanırsa, onu daha yaxşı qavrayır, maraqlanmadığı sahədə qavrayışı səthi xarakter daşıyır. Yeniyetmələrdə zaman, məkan, hərəkət qavrayışı da xeyli inkişaf edir.

Yeniyetməlik dövründə hafizə xeyli inkişaf edir. Yeniyetmə hafizəsini tənzim və idarə etməyi bacarır, yaddasaxlamanın səmərəli üsullarından şüurla istifadə edir, öyrənəcəyi materialı müqayisə edir, sistemləşdirir, mənasını anlayır, həmçinin öz sözləri ilə sərbəst olaraq nəql edir. Şagird istər – istəməz təkcə öyrənmək, yadda saxlamaqla kifayətlənmir, öyrəndiklərini əvvəlkilərlə əlaqələndirməyə, onun köməyi ilə yeni fikri məsələləri həll etməyə, ümumiləşdirmələr aparmağa çalışır.

Yeniyetmələr məntiqi, eləcə də ixtiyari hafizədən istifadəyə üstünlük verirlər. Tədricən yeniyetmələr belə bir qənaətə gəlirlər ki, mənalı yaddasaxlama və yadasalma daha üstün əhəmiyyətə malikdir. Şübhəsiz, hələ elə materiallar da olur ki, onları hərfən yadda saxlamaq və yada salmaq lazım gəlir (tərifləri, teoremləri və s.).

Yeniyetməlik dövründə diqqətin inkişafında özünəməxsus xüsusiyyətlər müşahidə olunur. Bu dövrdə diqqətin tez-tez yayınması halları özünü göstərir. Uşağın təlim fəaliyyətindəki əsaslı dəyişikliklər, tələbat və maraq dairəsinin dəyişməsi, şagirdin ayrı-ayrı fənlərə, müəllimlərə münasibəti, keçirdiyi psixi hallar, yeni və rəngarəng təəssürat bolluğu, cinsi yetişmənin başlanması ilə əlaqədar güclü təəssüratlar, yaşlılıq hissi ilə bağlı problemlər və s. diqqətin təzahür və inkişafına, burada mənfi halların özünü göstərməsinə səbəb olur. Təlim və tərbiyənin təsiri altında yeniyetmələrdə sabit ixtiyari diqqət inkişaf etməyə başlayır (3, s. 98).

Yeniyetməlik dövründə təxəyyülün inkişafında xeyli irəliləyiş baş verir. Bərpaedici təxəyyül yüksək inkişaf səviyyəsinə çatır. Onlar getdikcə ədəbiyyat, riyaziyyat, fizika, tarix və digər elmlərə aid biliklərini müəyyən sahəyə tətbiq edir, hekayə yazmağa, şəkil çəkməyə, müəyyən modellər quraşdırmağa və başqa faydalı işlər görməyə başlayırlar. Romantik, fantastik surətlərin yaradılmasına meyl yüksək olur. Yeniyetmələrin təxəyyülünün inkişafı təlim materialını daha səmərəli və yaradıcı şəkildə mənimsəmələrinə imkan verir. Yeniyetmələr əldə etdikləri bilikləri yeni sahəyə tətbiq etməyə başlayırlar.

Yeniyetmələrin təfəkkürü geniş ümumiləşdirməyə cəhd göstərməklə səciyyələnir. Hansı davranış formasını seçməsindən asılı olmayaraq yeniyetmələrdə təfəkkürün müstəqilliyi və tənqidiliyi özünü göstərir. Onlar cisim və hadisələr arasındakı əlaqələrlə maraqlanır, müxtəlif mühakimə və fərziyyələr irəli sürür və bütün bunları sübut etməyə çalışırlar.

Yeniyetməlik dövründə tənqidi təfəkkürün inkişafı da xarakterik haldır. Yeniyetmələr artıq öz rəylərini, fikirlərini əlaqələndirməyə çalışır, öz idrak obyektlərinə tənqidi münasibət bəsləməyə can atırlar. Hətta çox vaxt onlar dərslikdəki mətnlərdə, yaxud müəllimlərin və yaşlıların danışığında özünəməxsus "nöqsanlar" görürlər. Ona görə də yeniyetmələrin bu xüsusiyyəti müəllimin diqqət mərkəzində olmalı və o, şagirdlərdə özünü göstərən həmin

keyfiyyətləri düzgün istiqamətə yönəltməlidir. Yeniyetmənin iradi – emosional hissləri real xarakter daşıyır, yoldaşlıq, dostluq münasibətlərində açıq olur, sirlərini bir–birlərinə söyləyir və bir-birlərinin hüsn – rəğbətini qazanmağa çalışırlar (4, s. 211).

Yeniyetmələr təlim fəaliyyəti ilə yanaşı, əmək, oyun fəaliyyəti ilə də məşğul olurlar. Onlar süjetli – obrazlı, didaktik – tədris, idman, əyləncəli, kompüter oyunlarını çox xoşlayır, oğlanlar xüsusilə futbol, dama, nərd, şahmat oyunlarını yorulmadan gün ərzində oynamağa çalışırlar.

Müəllim və tərbiyəçilər unutmamalıdırlar ki, yeniyetməlik dövrü təsadüfən "keçid dövrü" adlandırılmır. Hər bir keçid dövründə isə köhnə ilə yeninin mübarizəsi gedir. Yeniyetmədə bir tərəfdən uşaqlıq, digər tərəfdən isə gənclik əlamətləri özünü göstərir. Onunla böyüklər kimi rəftar etmək, ona daha çox etibar etmək, təlim və əmək fəaliyyətində müstəqilliyinə şərait yaratmaq, məsləhəti, göstərişi dolayı yollarla vermək lazımdır. Bu işdə müvəffəqiyyət qazanmaq üçün yeniyetmənin davranış motivlərini, fərdi xüsusiyyətlərini dərindən öyrənmək vacibdir.

Hər bir müəllim, tərbiyəçi məktəblinin yaşından və fərdiyyətindən irəli gələn tələbatını aşkara çıxarmalı və düzgün inkişafına şərait yaratmalıdır. Yeniyetmələrdə ünsiyyətdə onlara inam ifadə etməklə, pedaqoji texnikanın bütün vasitələrindən (mimika, kəsərli söz, səs, şəxsi əxlaqi hisslər və s.) düzgün istifadə etməklə yeniyetmə məktəblinin daxili aləminə müsbət təsir göstərmək mümkündür və vacibdir.

Müəllim şagirdini təbəssümlə qarşılamalıdır. Dərsi şagirdin dərketmə qabiliyyətinə, öz şəxsi biliyinin səviyyəsinə və onun anlaşılmasına mövcud qurmalıdır. Məsələnin düzgün həllini dərhal izah etməklə deyil, şagirdin bilik səviyyəsini yoxlamaq üçün əvvəlcə onların bu məsələni müstəqil həll etmək imkanları öyrənilməlidir. Biliyə olan ehtiyacla onun öyrənilməsi arasında uyğunluq olmalıdır. Eyni zamanda yeniyetməlik yaşı dövründə müəllim – şagird münasibətlərinin düzgün qurulması, həm təlim müvəffəqiyyətini təmin edir, həm də sonrakı yaş dövrləri üçün əsaslı zəmin yaradır

**Məqalənin aktuallığı.** Aktuallıq yeniyetmələrin təlim fəaliyyətinin inkişaf etdirilməsində düzgün istiqamətlərin araşdırılıb seçilməsi, müəllim və şagirddən tələb olunan davranış qaydalarının düzgün müəyyənləşdirilməsi ilə bağlıdır.

**Məqalənin elmi yeniliyi.** Elmi yenilik isə dərs zamanı yeniyetmələrə yeni tərzdə yanaşmada yeni üsullardan istifadənin əməli bir məqsəd kimi qarşıya qoyulması amilinə diqqət yetirilməsindən ibarətdir.

**Məqalənin praktik əhəmiyyəti və tətbiqi.** Məqalədən elmi yaradıcılıq işində bu mövzu ilə maraqlananlar, eləcə də ali və orta ixtisas məktəblərinin tələbə və magistrləri istifadə edə bilər.

## Ədəbiyyat

1. Əliyev R.İ. Tərbiyə psixologiyası. Bakı, Nurlan, 2006.
2. Əliyeva H.İ. Yeniyetmə şəxsiyyətinin formalaşmasında müəllim-şagird münasibətlərinin rolu. Monoqrafiya. Bakı, Elm və təhsil, 2009.
3. M.Həmzəyev., S.Əmiraslanova. Ünsiyyətin psixologiyası. Bakı, Nurlan, 2007.
4. Батюта М.Б. Возрастная психология. Учебное пособие. М, Логос, 2013.

**З. Салимова**

## Психологические особенности подростковой учебной деятельности

## Резюме

Темой статьи является выявление основных проявлений психологических особенностей учебной деятельности подростков, анализ этих проблем на уровне научных и теоретических требований современной психологии.

На наш взгляд, психологический анализ проблемы характерных особенностей образовательной деятельности подростков, понимания поведения и общения подростков, усиления позитивного отношения к ним, также поможет управлять их негативными характеристиками.

**Z. Salimova**

## Psychological characteristics of teenage learning activities

## Summary

The theme of the article is based on the basic evidences of psychological personalities of the study of the subdivisions, the problems of the problem of the scientific and theoretical problems in modern psychology.

According to our view, the problem of psychological analysis of the characteristic features of the educational work of subconscious, perception of the relationship and affiliation of subordinates, the positive attitude of the relationship, can also lead to their controlling the negative characters.

**Redaksiyaya daxil olub:** 11.01.2019